# AZƏRBAYCAN KİTABXANALARINDA EKOLOGİYA ÜZRƏ ƏDƏBİYYAT ELEKTRON BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARININ TƏRKİB HİSSƏSİ KİMİ


***İradə Zülfəli qızı Əliyeva***

*Tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublika Dövlət Elmi Tibb Kitabxanası*
*Yasamal rayonu, Şərifzadə küç. 196*
*irada40@rambler.ru*



***Açar sözlər:*** *ekologiya, ədəbiyyat, elektron resurslar, kitabxana, elektron kataloq*
***Keywords:*** *ecology, literature, electronic resources, library, electronic catalog*
***Ключевые слова:*** *экология, литература, электронные ресурсы, библиотека, электронный каталог*



**Xülasə:** Məqalədə respublikamızda iri miqyaslı kitabxanaların elektron bazalarında ekoloji ədəbiyyatın təqdimat səviyyəsi müzakirə edilmişdir. Azərbaycan Milli Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası, Prezident Kitabxanasında elektron biblioqrafik informasiya təminatının yaradılması və inkişaf perspektivlərinin qısa xarakteristikası verilmiş, kitabxanalarda yaradılan elektron resursların xüsusiyyətləri, tərkibinin kəmiyyət göstəriciləri əksini tapmışdır. Milli Kitabxanada yaradılmış "Azərbaycan ekologiyası-10 ildə" mövzu biblioqrafik göstəricisi, Respublika Elmi Tibb Kitabxanasının "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda biblioqrafik göstəricisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Ekologiya" adlı informasiya bülleteni haqqında məlumat verilmişdir.

**Резюме:** В статье рассматривается уровень представленности экологической литературы в электронных базах данных крупных библиотек нашей республики. Дано краткое описание перспектив создания и развития электронной библиографической информации в Национальной библиотеке Азербайджана, Республиканской научно-медицинской библиотеке и Президентской библиотеке. Отражены характеристики и количественные показатели содержания электронных ресурсов, создаваемых в библиотеках. Были предоставлены библиографический указатель «Экология Азербайджана-за 10 лет», созданный в Национальной библиотеке, библиографический указатель «Экология, окружающая среда и здоровье» Республиканской научной медицинской библиотеки, информационный бюллетень «Экология» Президентской библиотеки Управления делами Президента Азербайджанской Республики.

**Summary:** The article examines the level of representation of environmental literature in the electronic databases of large libraries of our republic. A brief description of the prospects for the creation and development of electronic bibliographic information in the National Library of Azerbaijan, the Republican Scientific and Medical Library and the Presidential Library is given. The characteristics and quantitative indicators of the content of electronic resources created in libraries are reflected. The bibliographic index "Ecology of Azerbaijan - for 10 years", created in the National Library, the bibliographic index "Ecology, environment and health" of the Republican Scientific Medical Library, the information bulletin "Ecology" of the Presidential Library of the Presidential Affairs Department of the Republic of Azerbaijan were provided.


XX əsrin ortalarından etibarən başlayan və sonrakı dövrdə daha da intensiv şəkildə kitabxanalarda tətbiq edilməyə başlayan EHM-lərə əsaslanan yeni informasiya texnologiyaları əsrin sonuna doğru kitabxanalarda həyata keçirilən fəaliyyətdə inqilabi dəyişikliklərə gətirib çıxardı. Kitabxana-biblioqrafik prosesləri avtomatlaşdırıldı və bunun nəticəsində işin sürəti, keyfiyyəti, faydalı iş əmsalı dəfələrlə yüksəldi, elektron informasiya resursları yaradıldı və təqdim olundu [1].

Ölkəmizdə kitabxanalara məxsus elektron formalı həm ilkin sənəd, həm də biblioqrafik informasiya resurslarının yaradılmasında Milli Kitabxananın gördüyü işlər xüsusi qeyd edilməlidir.

Kitabxananın fonduna təkcə 2009-cu ildə 20 min nüsxədən artıq yeni ədəbiyyat daxil olmuşdur. Kitabxananın elektron kataloqunda təqdim edilən biblioqrafik informasiyadan bəhs edərkən, qeyd etmək lazımdır ki, kitabxanada VİRTUA adlı kitabxana-biblioqrafik proseslərinin kompleks avtomatlaşdırılması sistemi tətbiq edilmişdir. Bu sistemin ən vacib modullarından biri biblioqrafik verilənlər bazasıdır. Orada 250 min nüsxədən artıq ədəbiyyatı əks etdirən elektron biblioqrafik yazı öz əksini tapmışdır [3].

Kitabxanada ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin nəşr növünə görə tərkibi də xeyli maraq doğuran məsələdir. Müasir elmi sənədlərin nəşr növü əlamətinə görə ən çox yayılmış növləri çap və elektron sənədlərdir [2].

Kitabxananın fondunda təbiət elmlərinə dair kitabların geniş təmsil olunduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, bu yazıların içərisində ekologiyaya dair kitablar da geniş təmsil olunmuşdur.

Milli Kitabxanada yaradılmış Analitik elektron məlumat bazasının təşkili şöbəsində 2011–2013-cü illərdə bizi maraqlandıran sahə üzrə Azərbaycan dilində 66, rus dilində 130 adda məqalə haqqında biblioqrafik yazı daxil edilmişdir.

Kitabxananın soraq-biblioqrafiya aparatında onun fondunda olan ənənəvi sənədlərlə yanaşı, CD, VCD və DVD formasında olan 3362 nüsxə elektron sənədlər də əks olunur. Milli Kitabxanada belə innovativ xidmət xüsusi olaraq ixtisaslaşmış şöbə və zallarda həyata keçirilir. Məsələn, 2014-cü ildə Kitabxananın Elektron informasiya xidməti və KAA şöbəsində ekologiya və ətraf mühitin mühafizəsi mövzusu üzrə 85 adda kitab verilişi olmuşdur ki, bu, yalnız elektron biblioqrafik xidmətdən istifadə vasitəsilə həyata keçirilmişdir.

Beləliklə, Milli Kitabxanada yaradılan elektron biblioqrafik informasiya resursları tələbatçıların ən müxtəlif məzmunlu və istiqamətli sənəd növlərinə dair informasiya tələbatını ödəməyə imkan verir.

Respublika Elmi Tibb Kitabxanasında elektron biblioqrafik resursların yaradılmasının nisbətən kiçik tarixi vardır. 2010-cu ildən başlayaraq Kitabxananın fonduna müntəzəm şəkildə kompakt lazer diskləri daxil olmağa başlamışdır. Təkcə 2011-ci ildə fonda 10 adda CD və DVD daxil olmuşdur. Mövzumuz üçün maraq kəsb edən məsələ bu kitabxananın fondunda ekologiya istiqamətli sənəd kütləsi, onların dillər üzrə bölgüsü barədə məlumatdır. Təhlil göstərir ki, o dövrdə Kitabxananın fondunda ekologiyaya dair elektron nəşrlər çox az təmsil olunmuşdur. Kitabxanada İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya siteminin tətbiqinin iki illik müddəti ərzində müəyyən qədər sənəd haqqında biblioqrafik informasiya elektron formada sistemə daxil edilmişdir. Araşdırdığımız sahə üzrə biblioqrafik təminatda "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda kitabxananın tərtib etdiyi biblioqrafik göstəricinin əhəmiyyəti böyükdür [4].

Kitabxanaların biblioqrafik fəaliyyətinin digər istiqaməti müxtəlif tipli və təyinatlı biblioqrafik göstəricilərin tərtibidir. Həmin göstəricilər kitabxanaların fəaliyyət istiqaməti və oxucu tələbatının tərkibi nəzərə alınmaqla tərtib edilir. Bu vəsaitlərin hər biri elektron formada tərtib edilərək Kitabxananın internet saytı vasitəsilə tələbatçıların istifadəsinə verilir. Bundan əlavə, kitabxanada tərtib edilmiş biblioqrafik vəsaitlər müstəqil və qeyri-müstəqil olmaqla iki tipə bölünür. Müstəqil biblioqrafik vəsaitlər arasında tədqiq etdiyimiz mövzuya aid vəsait olan "Ekologiya" adlı informasiya bülleteni xüsusi əhəmiyyət kəsb edir. Vəsait 2010-cu ildən başlayaraq, rüblük olaraq nəşr edilir. 2015-ci ilin sonuna kimi bu vəsaitin 24 buraxılışı çıxmışdır. Vəsaitin orta həcmi rüblük buraxılışlarının həcmi üçün 5-12 səhifə arasında dəyişir, bir buraxılışda verilən biblioqrafik təsvirlərin miqdarı da buna münasib olaraq, 40-120 arasında olur.

Elektron formada olan və özündə tədqiq etdiyimiz sahə üzrə sənədləri əks etdirən digər qeyri-müstəqil vəsait isə "Azərbaycan ekologiyası" adlı elektron sənəd toplusunun tərkibində olan biblioqrafik bölmədir.

Prezident Kitabxanasının fəaliyyətində də elektron resursların, həmçinin ətraf mühitin mühafizəsi və ekologiya üzrə elektron biblioqrafik resursların yaradılmasına xüsusi diqqət yetirilir.

Belə qənaətə gəlmək olar ki, Azərbaycan kitabxanalarında tədqiq etdiyimiz sahə üzrə biblioqrafik informasiya təminatının zamanın tələbinə uyğun təşkilinin böyük əhəmiyyəti vardır. Bunun üçün kitabxanalarda həyata keçirilməsi mümkün olan bütün biblioqrafik fəaliyyətin səkkiz istiqamətinin imkanlarından istifadə edilməlidir. Həmin kitabxanaların əksər hissəsi sahə üzrə soraq-biblioqrafiya aparatını (SBA) təşkil edir, soraq biblioqrafiya xidməti, tövsiyə-biblioqrafiya fəaliyyəti həyata keçirirlər. Sahə üzrə müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibinə gəldikdə, yalnız Milli Kitabxananın, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının və nisbətən kiçik miqyasda Respublika Elmi Tibb Kitabxanasının adını çəkə bilərik. Sahə üzrə biblioqrafik informasiya xidməti yalnız Azərbaycan Milli Kitabxanasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında həyata keçirilir. Bu sahə üzrə ixtisaslaşdırılmış şəkildə biblioqrafik biliklərin təbliği və biblioqrafik elmi-tədqiqat işi üzrə isə konkret fakt aşkar edilməmişdir. Qeyd etmək lazımdır ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası və Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi bu sahə üzrə ixtisaslaşdırılmış qurumlar olsa da, onlar biblioqrafik təminat sahəsində öz potensiallarından çox az istifadə edirlər. Bu sahədə biblioqrafik təminatın intensivləşdirilməsində AMEA-nın çox sayda elmi işçilərinin, BDU-nun professor-müəllim heyətinin və təhsil alanların belə bir təminata böyük ehtiyacı olduğu nəzərə alınmalı və onların elmi kitabxanalarında sənəd kütləsi zənginləşdirilməli, ənənəvi biblioqrafik təminat işi canlandırılmalıdır [1, 2].

Sahə üzrə biblioqrafik təminatda 2009-cu ildə Milli Kitabxana tərəfindən tərtib edilmiş "Azərbaycan ekologiyası-10 ildə" mövzu biblioqrafik göstəricisi, "Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr" adlı metodik tövsiyə vəsaiti, "Yeni kitablar", "Birillik Azərbaycan Kitabiyyatı", Respublika Elmi Tibb Kitabxanasının "Ekologiya, ətraf mühit və sağlamlıq" mövzusunda biblioqrafik göstəricisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Ekologiya" adlı informasiya bülleteninin əhəmiyyəti qeyd edilməlidir.

**Ədəbiyyat**

1. *Əliyeva İ.Z.* Azərbaycanda ekologiya üzrə biblioqrafik verilənlər bazasının yaradılması sahəsində kitabxanaların təcrübəsi // – Bakı: Kitabxanaçılıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal, – 2013. № 2 (33). – S. 132-142.

2. *Əliyeva İ.Z.* Azərbaycanın biblioqrafik verilənlər bazalarında ekologiyaya dair ədəbiyyatın əks olunması // Ekoloji 2012 Sempozyumu, – Türkiyə, Kilis: – 03-05 Mayıs, – 2012. – S. 463-464.

3. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2011-ci il hesabatı // M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Arxiv Fondu, 169 s.

4. Respublika Elmi Tibb Kitabxanasının 2010-cu il hesabatı // Respublika Elmi Tibb Kitabxanasının Arxiv Fondu, 179 s.